Sevindik Nəsiboğlunun yeni kitabı

KÖNÜL QAPISINDA DÜŞÜNCƏLƏR

Sevindik Nəsiboğlunun "Könüllərə yol gəzirəm" adlı şeirlər və poemalar kitabı onun oxucularına ünvanlanan yeni poetik məktublarıdır. Ona görə "məktublarıdır" demək yerinə düşür ki, onun hər bir sözünün, şeirinin konkret ünvanı var.

Bu, müəllifin "Dünyamsan Azərbaycan" (2018) və "Hərdən uçmaq istəyirəm"(2018) poetik kitablarından sonra üçüncü cəsarətli addımıdır. Əlbəttə, "Könüllərə yol gəzirəm" deməkdə müəllifi haqlı hesab edirik. Çünki hələlik bütün uğurlarına baxmayaraq onun poetik nəfəsini ifadə edən yazıları ürəklərə, könüllərə yol gəzməkdir. Sanki o, bu gəzmələri ilə cəmiyyətdən və təbiətdən, müasir həyatdan və tarixdən aldığı təəssüratları zamana, dövrə, həyata münasibətini ifadə edən söz çiçəklərinə çevirir.

Redaktor: *Əli Rza XƏLƏFLİ,*
şair-publisist,
"Kredo" qəzetinin baş redaktoru

Rəyçi: *Xanəli KƏRİMLİ,*
şair-publisist
filologiya üzrə fəlsəfə doktoru,

Sevindik Nəsiboğlu *(Əliyev Sevindik Nəsib oğlu)* **Könüllərə yol gəzirəm** *(şeirlər və poemalar).* "3 saylı Bakı Mətbəəsi" ASC. Bakı - 2020, 208 səhifə.

Gənc və istedadlı yazar Sevindik Nəsiboğlunun "Könüllərə yol gəzirəm" kitabı oxucularla dördüncü görüşüdür. Onu müasir ictimai və ədəbi mühitdə nəşr olunan kitabları şair və publisist kimi tanıdıb. "Dünyamsan Azərbaycan", "Hərdən uçmaq istəyirəm" və "Ulu Naxçıvanım" adlı kitabları oxucuların böyük marağına səbəb olur. Hələ kiçik yaşlarından - indi on iki yaşı var - yaradıcılığa şeirlə başlayan Sevindik Nəsiboğlu "Ulu Naxçıvanım" kitabı ilə müşahidə və təhlil imkanlarına malik olduğunu təsdiq edib. Ara-sıra hekayələr də yazır. Ancaq onun hadisəyə, fakta və ümumilikdə, həyata münasibəti daha çox poetik ovqatla üzə çıxır. Şeirlərində Vətən tarixindən qaynaqlanma, xalqımızın qəhrəmanlıq keçmişindən təsirlənmə daha güclüdür. Onun süjetli şeirləri epik-lirik növə, xüsusilə, meyilli olduğunu göstərir. Çünki gənc yazar maraqlı poemaları ilə oxucularının rağbətini qazanıb.

Ümumiyyətlə, Sevindik Nəsiboğlunun yaradıcılığında Vətən sevgisi və milli qürur hissləri qabarıq duyulur.

Gənc yazar Sevindik Nəsiboğlunun "Könüllərə yol gəzirəm" kitabına son illərdə yazdığı şeirlər və poemalar toplanmışdır.

© Nəsiboğlu S., 2020,
© "3 saylı Bakı Mətbəəsi" ASC, 2020.

İndinin özündə də o, insanların düşüncələrinə təsir etmək gücündədir. Hələ xeyli əvvəl Sevindik Nəsiboğlunun "Hərdən uçmaq istəyirəm" kitabının adı məni xeyli düşündürdü. Bu ifadənin içindəki enerji mənə "Hərdən uçmaq istəyirəm" adlı qəsidə də yazdırdı. Belə bir fikir var; şair öz əhatəsində olan qələm adamına yeni söz yaratmaq üçün işıq verə bilirsə, o, şairdir. Bir sözlə, bu da mənim etirafım. Sevindik Nəsiboğlu "Könüllərə yol gəzirəm" manifesti ilə insan - düşüncə okeanına uğurlu bir səyahət başlayıb.

* * *

Son illər Sevindik Nəsiboğlunun mənəvi boy artımını müşahidə imkanım kifayət qədər olub. Əsas da ona görə ki, o özü "Kredo" qəzetini yaradıcılığı üçün mənəvi istinad mərkəzi kimi görür. Ardıcıl və davamlı surətdə qəzetin ünvanına yazılar göndərir, qəzetdə dərc olunmuş digər yazılara münasibət bildirir, hətta bir çox hallarda bu münasibətini yazıları, məqalələri ilə reallaşdırır. Birmənalı demək olar ki, Sevindik Nəsiboğlu məhsuldar müəllifdir, yazmaqdan hələ ki, bezmir, usanmır; demək olar ki, dövrün bütün ədəbi, mədəni hadisələrinə münasibət bildirir. Yeri gələndə tənqidi münasibətindən də çəkinmir. Bu mənada o, həm də cəsarətli müəllifdir. Yazılarında bəzən qarşımıza çıxan mübahisəli məqamlara aydınlıq gətirməsini istəyəndə belə mövqeyini inadla müdafiə edir.

Hər bir müəllifin yaradıcılıqda özünü tapması üçün forma, üslub axtarışları var. Üstəlik mövzu axtarışlarını da buraya əlavə etsək, onda Sevindik Nəsiboğlu kimi bir yeniyetmə üçün bunun nə demək olduğunu aydın təsəvvür etmək mümkündür.

Hələ ki, Sevindik Nəsiboğlu özünün düşüncə aləmini həm publisistikada və nəsrdə, həm də poeziyada ifadə etməyə çalışır. Publisistikada nə qədər məhsuldardırsa, poeziyada da bir o qədər məhsuldardır. Onun düşüncə mexanizmi hər iki istiqamətdə kifayət qədər işləkdir.

Bu yaxınlarda onun "Ulu Naxçıvanım" adlı publisistik təəssürat kitabı - özü də kifayət qədər möhtəşəm, əhatəli, zəngin məzmun və informasiya tutumuna malik kitabı işıq üzü görüb. Elə bu kitabın özündə də biz Sevindik Nəsiboğlunu qəlbi poetik çırpıntılarla döyünən yeniyetmə şair kimi görürük. Doğrudur, Sevindik Nəsiboğlunun bu şeirləri əlverişli mənəvi iqlimdə bir qədər də tez yaza can atan, açmağa tələsən tumurcuqlar kimi təzahür edir. Amma hər halda, təbiət pis üzünü göstərməsə, tumurcuqların qönçələrə, qönçələrin güllərə çevriləcəyinə biz şübhə etmərik. "Ulu Naxçıvanım" kitabına annotasiya formasında rəy yazmış filologiya elmləri doktoru, yazıçı Elçin Mehrəliyev təkcə kitabın mahiyyətini yox, həm də müəllifin özünün həyəcanlarının bəhrəsi olan sözünün poetik çalarına da kifayət qədər diqqət yetirir: "Kitabın hər sətirindən müəllifin ürək döyüntülərini, həyəcanlarını hiss etmək olar və o, burada gəzdiyi, gördüyü yerlərin, tarixi abidələrin, Naxçıvandan pərvazlanmış görkəmli şəxsiyyətlərin foto-şəkillərini də təqdim edir. Əsər məktəbli şair-publisistin ədəbiyyata və tədqiqata yeni nəfəslə gəldiyini təsdiq edir. Ayrı-ayrı mövzuların lirik-emosional ruhu poetik mətnlər kimi oxunur. Esselər, şeir parçaları, mətnlərə uyğun şəkillər kitaba bir canlılıq bəxş edir. Bir sözlə, "Ulu Naxçıvanım" kitabı məktəbli şair-publisistin doğma diyarımızın dünənindən, bu günündən bəhs edən duyğularının ifadəsidir (Sevindik Nəsiboğlu "Ulu Naxçıvanım", 2020, səh. 3). Burada, xüsusilə, diqqəti çəkən bir ifadə var: "Canlılıq" ifadəsi. Zənnimizcə, bu ifadə rəyçinin sözünə təsadüfi daxil olmayıb. Çünki, yeniyetmə müəllif ruh etibarı ilə sözlə ülfətində o qədər səmimidir ki, onun sözü ilə özünü qəti sərhədlər şəklində ayırmaq olmur. Biz onun yazılarında da, xüsusilə, poetik yazılarında uşaq səmimiyyətini, kövrək sadəlövhlüyünü, cəmiyyətə, insanlara şəkk-şübhədən kənar, inadlı inamını görürük. Bunun özü elə sözdəki canlılığı təmin etmiş olur. Bir sözlə, "Ulu Naxçıvanım"a qədər bir neçə şeir kitabı ilə şair kimi tanınan Sevindik Nəsiboğlu "Ulu Naxçıvanım"da da şair olaraq qalır. Publisistikada Sevindik Nəsiboğlu dilinin şirinliyi, poetikliyi elə onun poeziyası ilə, bir sözlə, şairliyi ilə bağlıdır.

On iki yaşlı Sevindik Nəsiboğlunun neçə il əvvəldən üzü bəri şeirlər yazdığı, ayrı-ayrı radio və televiziya dalğalarında öz şeirlərini yüksək həyəcan və hisslərlə oxuması, eyni zamanda şeirlərini müşayiət edən parlaq çıxışları onu tanıyanlara yaxşı məlumdur. Hətta geniş miqyaslı yığıncaqlarda belə, müvafiq mövzuya uyğun ağıllı və məntiqli çıxışları, onu dinləyənləri həmişə heyrətdə qoyur. Və mən özüm də bunun şahidiyəm.

İndi bu sözləri yazarkən, düşünürəm ki, onsuz da cəmiyyətdən heç vaxt kəm olmayan şəkkaklar onun yaşı ilə müqayisədə "Başından böyük" söz sahibi olmağına bir "əh" mükafatı da ayıracaq. Neyləmək olar? Cəmiyyət mexaniki şəkildə idarə olunan mexanizm deyil. Ancaq həyat da durğun deyil. Tez-gec beləliklə qarşılaşması olacaq; zahiri harmoniyasında, daxili-mənəvi mühitinin gözəlliyini ehtiva edən Sevindik Nəsiboğlu hər kəsi heyrətləndirəcək emosiyası ilə inamsızlarına da inam bəxş edəcək.

* * *

"Könüllərə yol gəzirəm" kitabı müəllifin həyatın ən müxtəlif tərəflərinə poetik münasibətinin ifadəsidir. Onun şeirlərində və poemalarında uğurunu təmin edən bir əsas məqamı elə bəri başdan demək olar; bu cəmiyyətdəki, həyatdakı təzadlı tərəfləri təkcə bilgisi ilə yox, istedadı və intuisiyası ilə də müşahidə edə bilir. Onun şeirləri və poemaları tariximizin və günümüzün, həyatımızın və dövrümüzün mənzərəsini yaradır. Təbiidir ki, bu mənzərədə ağ və qara, yaxşı və pis, işıq və qaranlıq, sevinc və kədər... bir-birini izləyir. Və təkcə izləmir, həm də tamamlayır. Kitab iki bölmədən - şeirlərdən və poemalardan ibarətdir. Şeirlər nə qədər həyatın müxtəlif tərəflərini düşüncəmizin nəzər nöqtəsinə gətirə bilirsə, poemalar da bir o qədər, bəlkə də daha çox onun düşüncə sərhədlərinin genişliyini göstərir. "Qürur yerimiz" adlı şeiri özünün dediyi kimi: "1941-1945-ci illərdə faşizmə qarşı mübarizədə şəhid olmuş azərbaycanlılarımızın əziz xatirəsinə" həsr olunub. Müəllif əvvəlcə faşizmə qarşı döyüşmüş qəhrəmanları yox, faşizmin təbiətini xarakterizə edir. O, "faşizmdir böyük cəllad, böyük şeytan, kor iblis" - deyir. Faşizmi cəllad adlandırır. Böyük şeytan hesab edir. Və kor iblis epiteti ilə damğalayır. Çox güman ki, iblis obrazı Sevindik Nəsiboğlunun düşüncəsinə Hüseyn Cavid yaradıcılığından gəlir. Axı o, Cavid haqqında dram əsəri yazıb. Cavidin taleyinə poema həsr edib. Beləliklə, insan təbiətindəki iblisliyin mahiyyətinə Cavid sözünün işığında vara bilib. Burada bir maraqlı məqam da "kor" epitetidir. Axı xalq arasında iblisin şeytan mahiyyəti var. Və şeytanı insanlar "kor" deyə damğalayırlar. Ruhən kor olan, şərə xidmət edən insan kor şeytana bənzədilir. Və onu lənət sözü ilə damğalayırlar. Şair belə bir inamdadır ki, "böyük şeytan"ı, "kor iblis"i yurdumuzdan qovan faşizmə qarşı döyüşənlərdir. Bu şeirin içərisindən iki misra həm poetik ifadə tərzi, həm də zəngin düşüncə imkanı baxımından xüsusilə diqqətə çəkməyə əsas verir:

Faşizmin dumanları bürüməsin Vətəni,
Bayraq olsun eşqiniz, yaşasın əməliniz.

Nə qədər gözəldir: faşizmə qarşı döyüşənlərin əməlini yaşatmaq istəyi, onların eşqini bayraq kimi görmək istəyi. İki misranın içərisinə yığılmış ülvi şair duyğuları elə insanlığın özünü qorumağa yönəlikdir.

Sevindik fəal qələm sahibi olmaqdan əvvəl, fəal oxucudur, fəal müşahidəçidir. Onun düşüncəsinə təsir edən, hətta cəmiyyətdə maraq doğuran hadisə və əhvalatlar diqqətindən kənarda qalmır. Türkiyə kanallarından birində yayımlanan "Diriliş Ərtoğrol" serialında Şəmistan Əlizamanlının "Dədə Ozan" rolunda görünməsi onun yeniyetmə vücudunda elə bir həyəcan yaradır ki, böyük Türkün yolunu tərənnüm edə bilir. Və bu tərənnüm özünün nəğməsi kimi səslənir. Uğuru isə onunla təmin olunur ki, sanki biz Şəmistan Əlizamanlının simasında Dədə Ozanın nəğməsini dinləyirik. O, Şəmistan Əlizamanlını Ərtoğrolun nəvəsi adlandırır. Onun əzəmətli və zəngin təəssürat doğuran nəğməsinin təsiri altında böyük Hüseyn Cavidin türklük ruhunu duyuruq. Əhməd Cavadı, Cəfər Cabbarlını və çırpınan Qara dənizi görürük.

(Davamı 9-cu səhifədə)

(Əvvəli 8-ci səhifədə)

Müəllifin poetik istedadı bu adların, ifadələrin məzmun bağlılığını yaradır. Və nəhayət, o, ədəbi qəhrəmanına "Sən Altaysan, sən Bozqurdsan. Düşmən qarşında nə edər? Sən ona təslim olmazsan. Nəriltinlə yox edərsən. Sən bir əsgər Şəmistansan, öz nəğmənlə, Ərtoğrolu yad edərsən", - deyir. Əslində, elə həqiqət budur. Müğənni nəğməsi ilə, şair sözüylə keçmiş şərəfli tarixi yaddaşa gətirməli, yatmış duyğuları oyatmalıdır. Mikayıl Müşfiqi xatırladan "Bəxtiyar oda" şeirini həyəcansız oxumaq olmur. Şeirdə müəllif bir odanın (ev) timsalında Mikayıl Müşfiq ruhunu tərənnüm edir. Böyük faciə qəhrəmanı şairin qələminin bu gün də işlək olduğuna görün bizi necə inandırır:

Bu şeiri yazan onun qələmidir,
O, Nəsiboğludur, o Sevindikdir!

Sevindik Nəsiboğlu, əgər belə demək mümkünsə, kiçik canı ilə necə böyük dərdlər daşıyır. Onun İslam Səfərliyə həsr olunmuş "Bilərəm" rədifli şeiri var. Son üç misrasını diqqətə çəkməklə onun daşıdığı dərd yükünü təsəvvür etmək mümkündür:

Sevindik Nəsiboğlunun yeni kitabı

26 iyul 2008-ci ildə İmişli şəhərində anadan olmuşdur. Əslən Ağcabədi rayonunun Yuxarı Qiyamәddinli kəndindəndir. O, hazırda Xırdalan şəhər 9 saylı tam orta məktəbin 6-cı sinif şagirdi və dərs əlaçısıdır. Beş yaşından yazıb-oxumağı və kompüter proqramlarını öyrənmişdir. Vikipediya vasitəsilə Azərbaycanımızın keçmişi, tanınmış şəxsləri, sərkərdələri, şairləri və sənətkarları barədə məlumatlar toplamışdır. Elə həmin vaxtlardan kiçikhəcmli hekayələr və şeirlər yazmağa başlamışdır.

Sevindik Nəsiboğlunun 300-dən artıq şeiri vardır. Şeirlərin əsas mövzusunu Vətən, torpaq həsrəti təşkil edir. 2015-ci ildən şeirləri "Abşeron təhsili", "Respublika xəbərləri" qəzetlərində, "Söz" və s. jurnallarda dərc olunmuş, Milli Radiomuzun "Navalça", televiziya kanallarının "Pillə", "Çıxış yolu" və "Məhəbbət nəğmələri" verilişlərində səsləndirilmişdir. Eyni zamanda o, 40-dan çox publisistik məqalə və araşdırmanın müəllifidir. Res

Sevindik NƏSİBOĞLU (Əliyev Sevindik Nəsib oğlu)

publika Milli Kitabxanasının, Abşeron rayon Təhsil şöbəsinimn keçirdiyi icti mai-kütləvi tədbirlərdə dəfələrlə çıxış etmiş, məktəb tərəfindən çoxsaylı təriflənamə və diplomla mükafatlandırılmışdır.

2017-ci ildə "Həqiqət" Tarixi Araşdırmalar İctimai Birliyinin "Gənc İstedad" fəxri diplomuna, 2019-cu ildə "Asiya-fakt" İnformasiya Agentliyinin "Sizi tanıyaq" layihəsində iştirakına görə uşaqlar arasında "Ən yaxşı yazar", "İlin şagirdi" diplomuna və "Azərbaycan XXI əsrə istedadlarla" layihəsi çərçivəsində "Gənc İstedad" diplomuna layiq görülmüşdür.

2018-ci ildə "Dünyamsan Azərbaycan" və "Hərdən uçmaq istəyirəm" adlı şeir kitabları nəşr edilmişdir.

2019-cu ildən "Kredo" qəzetinin redaksiya heyətinin üzvi və ən gənc ictimai müxbiridir.

2020-ci ildə "Ulu Naxçıvanım" elmi-publisistik kitabı ("3 saylı Bakı mətbəəsi" ASC, 2020. 240 səh.) oxuculara təqdim olunub.

Ədəbi-hədii yazıları "Kredo" qəzetində ardıcıl dərc olunur.

KÖNÜL QAPISINDA DÜŞÜNCƏLƏR

Dağlıqda "Azadlıq!" bağıra bilsəm,
Onda şəhidlərə baxa bilərəm,
Onda Qarabağı görə bilərəm!

Buradakı "dağlar" (müəllif dağlıq deyir) nə qədər Azərbaycan təbiətinin zirvələridirsə, bir o qədər də Azərbaycanın mənəvi varlığında üst-üstə çəkilmiş dağlardır. Şair oxucusunu məhz o dağların zirvəsinə çağırır ki, ordan şəhidlərə baxmaq ola bilər, ordan Qarabağı görmək mümkün ola bilər. Nə qədər obrazlılıq, nə qədər dərdə yaxınlıq, doğmalıq var. Dərdin içində böyümə var. Hərdən belə misraları oxuduqca Tanrıdan Sevindik Nəsiboğlunun kövrək ruhuna güc diləyirəm. Axı insan daş, dəmir deyil. Düşüncədən və ürək çırpıntılarından keçib dünyaya yol gələn insan bəzən bu yolun ağırlıq yükü altında zamanından tez sarsıla bilər. "Bir sevgi göründü gözümə"şeirində bir poemanın məğzini, mahiyyətini daşımaq gücü var. Şeir o qədər lirik ovqatdadır ki, onu poemalar sırasına daxil etmədik. Müşfiqin bəlalı sevgisi, Hüseyn Kürdoğlunun ağrılı sevgi yükü daşıyan yaradıcılığı bu şeirdə bir araya gətirilir.

Müəllifin istedadı ona imkan verir ki, ayrı-ayrı zamanların faciə qəhrəmanlarını bir müstəvidə görə bilsin. Müşfiqə həyatını yaşamaq imkanı verilmədiyi üçün faciə qəhrəmanıdır. Hüseyn Kürdoğlu yurd işğalının dağı ilə göynəyən faciə qəhrəmanıdır. Müəllif zamanları bir-birinə qovuşdura bilir müxtəlif zamanları özündə ehtiva edən qəhrəmanları ilə...

Sevindik Nəsiboğlu bilgili şairdir. Hər şeirində tarixin üstünü örtdüyü bir məlumatı üzə çıxarır. "Cabbarlı ilə Cavid" şeirinin epiqrafına diqqət edək: "Burası Muşdur, Yolu yoxuşdur, Gidən gəlmiyor... Gidən gəlmiyor... Gidən gəlmiyor... Əcəb nə işdir...", "Cavid ömrü" filmində Cabbarlının vəfatını eşidərkən Cavidin dilindən keçən türkü..." Bu şeir müəllifin özünün qeyd etdiyi kimi "100 illik Cabbarlı - Cavid əlaqələrinə..." güzgü tutur. Onu da demək yerinə düşərdi ki, həm Cabbarlı, həm də Cavid mövzusu Sevindik Nəsiboğluna çox doğmadır. O, bu böyük ədəbi simaların həyat və yaradıcılıq yollarını ardıcıl öyrənir, oxuyur. Yaddaşında əks-səda verən təəssüratlarını da uğurla yazıya gətirir. Ümumiyyətlə, tarix Sevindik Nəsiboğlu üçün təkcə bilgi mənbəyi deyil. O, poetik duyğulanmaları üçün tarixdən çox qaynaqlanır. "Çanaqqala keçiləməz" şeirində Mustafa Kamal Paşa Atatürkün obrazını görürük. Müəllif bu şeirdə bu günün oxucusuna Atatürkün qalib gücünün əsas səbəbini açıqlayır. Göstərir ki, Atatürk ona görə qalib gəldi ki, türk əsgəri, türk qəhrəmanları ona sonadək inamlı oldular. "Əbədiyyət məkanı", "Əliyar", "Əmin və Nafiyə", "Əmrəyə tərif" şeirlərində də tarixə güvəncli müəllifin tarixi həqiqətlərə poetik yanaşmasında səmimiyyət, oxucu ilə onun arasında qırılmaz bağlılıq yaradır.

Sevindik Nəsiboğlu günümüzün əyər-əskiyinə də biganə deyil. Onun Sabirə həsr olunmuş şeirlərində bir qamçılama ruhu var. Sabirdən gələn təsir satirik şeirlərə və təmsillərə çevrilir. "Haramxor" şeirindəki obrazı hansımız tanımırıq? "Haramxor"un təbiətini, xırda oğurluqdan tutmuş, yüksək çinli məmurların talançılığına qədər çox yerdə görmək mümkündür. Bu tipli şeirlərdə biz Sevindik Nəsiboğlunu cəmiyyətin mənəvi saflığı və təmizliyi uğrunda mübariz kimi görürük. Bir sözlə, Sevindik Nəsiboğlunun şeirləri əlvanlığı və rəngarəng mənzərə bütövlüyü ilə oxucunu təmin edir.

Poeziyasız insan qəlbi daşlaşardı. Çünki insan təbiətinin, mənəvi mühitinin dumanlara büründüyü məqamlarda işığı incəsənətdə, xüsusilə də poeziyada görür. Şairin həyatdan aldığı təəssürat - sevinc olsun, ya kədər, dəxli yoxdur - təsiredici duyğular kimi sözə gəlir. Şair qəlbinin dərinliklərində gizlənmiş olan sirlərini şeirindən gizləyə bilmir. İlhamına sarılaraq bu sirləri sözə çevirir. Şair nə qədər daxili aləminə sadiq olursa, yazıqları da bir o qədər səmimi olur.

Sevindik Nəsiboğlunun yaşına uyğun duyumu ilə qələmə aldığı şeirlərdə kifayət qədər onun təbii hisslərini duya bilirik. Və elə duyduğumuz üçün də onun şeirlərindən təsirlənə bilirik. Əgər belə demək mümkünsə, o, həyat həqiqətlərinə çox sadiqdir. Gördüyünü, duyduğunu, mənəvi mühitinə təsir edən, bəzən kövrəldən, bəzən sevindirən hadisə və faktları ilhamının boyunca, şairlik istedadının qədərincə sözə gətirə bilir.

Sevindik Nəsiboğlunun şeirlərində forma kəm-kəsirləri, mövzunun qədərincə bişməmiş halları da var və bütün bunlar onun üçün hələ ciddi irad ola bilməz. Bir sözlə Sevindik Nəsiboğlu ilhamına güvənərək inamlı və inadlıdır.

Kitabın ikinci hissəsi poemalardan ibarətdir. Üç hissəli"Cavid", Vaqif Səmədoğlunun ölməzliyinə həsr olunmuş "Çin olmayacaq yuxu", "Gündüz, yaxud Qayı boyunun yüksəlişi" və digər poemaları mövzu rəngarəngliyi, dövrə, həyata münasibət baxımından maraqlıdır, diqqəti çəkir. Oxucuda dərin təəssüratlar oyadır. Biz burada ayrı-ayrı əsərlərə dərin və əhatəli təhlil verməkdən yan keçirik. Çünki əsas fikir və hökm oxucunun olmalıdır.

Poema şairdən dərin bilgi və tərənnüm istedadı tələb edir. Şair sevdiyi mövzunu dövründən asılı olaraq müxtəlif mənbələr əsasında öyrənir, özünün arzu və ideallarına uyğun gələn qəhrəmanı elə həmin dövrün, yəni yaşadığı mühitin fonunda tərənnüm edir. Başqa sözlə, ona sevgisini izhar edir. Qəhrəmanın həyat yolu, mübarizələri müəllifin hiss və həyəcanları ilə rənglənir.

Sevindik Nəsiboğlu çox gənc (12 yaş) olmasına baxmayaraq, Azərbaycan tarixinin, xüsusilə, azəri türklərinin ümumtürk axını içərisində yerini, nüfuzunu, özünüqoruma yolunu xüsusi məhəbbətlə araşdırır və elə həmin məhəbbətlə, səmimi sevgi ilə tərənnüm edir. Sevə-sevə tərənnüm etdiyi ədəbi qəhrəmanlar milli yaddaş obrazı olaraq onun əsərlərində kifayət qədər yaşarılıq ala bilir.

Bu kitabda oxuculara onun bir neçə poeması təqdim olunur. Əsərlərin hər birində onun hələ kövrək olan qəlbinin döyüntüləri ilhamlı duyğuları ilə çırpınır.

Dünyanın qorxunc pandemiya ilə hədələndiyi bir zamanda insanın inam ocağı kimi baxdığı SÖZ adlı bir məkan var. Bu məkanda insan özünü görə bilirsə, onda həyatın da, dünyanın da əbədiliyinə inanar. Düşünmək olar ki, Sevindik Nəsiboğlu belə bir inam üstündə köklənərək "Könüllərə yol gəzirəm" deyir.

Və nəhayət, Sevindik Nəsiboğlunun hələ on iki yaşı var. Yuxarıda dediyimiz kimi, onun yazdıqlarının yaz qabağı tumurcuqlar kimi günəşə, bahara can atmaq istəyini də dana bilmərik. Qabaqda həyatın gözlənilməz gərdişləri, zamanın döngələri, həyatın dönümləri var. Biz çox istəyərdik ki, hələlikdə oxucu Sevindik Nəsiboğlunun "Könüllərə yol gəzirəm" kitabında quş ürəyi kimi çırpınan duyğularına həssaslıq göstərsin.

Bir də ki... bu yazının saf, kövrək, duyğulu bir Vətən övladının, milli varisin, sözə can atan yeniyetmənin könül qapısında düşüncələr olduğunu diqqətli oxucunun nəzərə alacağına da inanmaq istərdim.

Əli Rza XƏLƏFLİ
17.06.2020